**DOI: https://doi.org/10.59849/2957-3882.2026.1.120**

# 2003-CÜ İLDƏ İRAQA MÜDAXİLƏ: SƏBƏB, MƏQSƏD VƏ NƏTİCƏLƏRİ

**Günay ƏLİYEVA**
*AMEA akad.Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, böyük laborant*
*E-mail: liyeva17@inbox.ru*

*Daxilolma tarixi: 17.11.2025*
*Düzəliş tarixi: 15.03.2026*
*Nəşrə təsdiq tarixi: 21.05.2026*

## XÜLASƏ

Yaxın Şərq, o cümlədən İraq əhəmiyyətinə görə bəşər tarixinin, demək olar ki, bütün dövrlərində münaqişə zonası olmuşdur. Bu regionda vəziyyət siyasi, iqtisadi, mədəni, sosial və etnik strukturu ilə əlaqədar olaraq qeyri-sabit olmuşdur. Burada təbii sərvətlərin mövcudluğu, demokratik rejimin olmaması, bölgənin milli, dini və məzhəb baxımından zənginliyi həm regional, həm də beynəlxalq qarşıdurmalara səbəb olmuş və onu dünyanın ən qeyri-sabit bölgələrindən birinə çevirmişdir. 11 sentyabr terror hadisələrindən sonra bölgədə maraqları olan dünyadakı super güc ABŞ terrorla mübarizə adı altında Əfqanıstan, daha sonra isə İraqa öz qoşunlarını yeritmişdir. “Dünya jandarması” ABŞ, İraqın bütün dünya üçün təhdid ünsürü olduğunu bəyan etmişdir. Bunun üçün də İraqın Əl-Qaidə terror təşkilatı ilə əlaqəsinin olması, ölkədə bioloji və kimyəvi silahların mövcudluğu kimi əsassız iddialar irəli sürmüşdür. Müharibədən öncə İraq ordusu və İraq xalqı arasında ABŞ-ın həyata keçirdiyi əks təbliğatlar da müharibənin başlanması üçün əsas səbəblərdən biri olmuşdur. Müharibə 2003-cü ilin mart ayının 19-da Corc Buşun dünyaya səslənməsi ilə başlamış və həmin ilin may ayının 1-də isə sona çatdığı elan edilmişdir. Müharibə sona çatsa da, ABŞ-ın ölkədəki varlığı uzun illər davam etmiş və faktiki olaraq 2011-ci ildə sona çatmışdır. İşğaldan sonra ölkədən heç bir bioloji və kimyəvi silah tapılmamışdır. Həmçinin Səddam Hüseynin Əl-Qaidə ilə əlaqələrinin olmadığı da sübuta yetirilmişdir. İraqa müdaxilə ABŞ və koalisiya qüvvələrinin uğursuz bir addımı kimi tarixə düşmüşdür. Ölkə gözlənilənin əksinə qarşıdurma və münaqişə mərkəzinə çevrilmişdir.

***Açar sözlər:*** *ABŞ, İraq, İsrail, siyasət, tarix, terrorizm, kütləvi qırğın silahı.*

# ВМЕШАТЕЛЬСТВО В ИРАК В 2003 ГОДУ: ПРИЧИНЫ, ЦЕЛИ И ПОСЛЕДСТВИЯ

**Гюнай АЛИЕВА**
*Институт Востоковедения имени академика*
*З. М. Буниятова Национальной Академии*
*наук Азербайджана, старший лаборант*
*E-mail: liyeva17@inbox.ru*

*Дата поступления: 17.11.2025*
*Дата исправления: 15.03.2026*
*Дата утверждения к публикации: 21.05.2026*

## АННОТАЦИЯ

В силу своего геополитического значения Ближний Восток, включая Ирак, на протяжении всей человеческой истории оставался зоной конфликтов. Столкновение политических интересов различных социальных групп и внешних сил усугублялось внутренними противоречиями, сложным этническим составом населения и культурными различиями. Наличие богатых природных ресурсов, отсутствие демократических режимов и стратегическое положение региона стали причиной многочисленных внутренних конфликтов, а также внешнего вмешательства, превративших Ближний Восток в один из самых нестабильных регионов мира.После событий 11 сентября Соединённые Штаты Америки — мировая сверхдержава с активными интересами в регионе — под предлогом борьбы с терроризмом ввели войска сначала в Афганистан, а затем и в Ирак. «Мировой жандарм» заявил, что Ирак представляет угрозу глобальной безопасности. В связи с этим были выдвинуты необоснованные обвинения: в частности, в связях режима Саддама Хусейна с террористической организацией «Аль-Каида» и в наличии в стране биологического и химического оружия. До начала войны активно велась контрпропаганда, проводимая США как внутри иракской армии, так и среди гражданского населения. Это стало одним из ключевых факторов, приведших к вооружённому вмешательству. Война началась 19 марта 2003 года с обращения Джорджа Буша к мировому сообществу и была официально завершена 1 мая того же года. Несмотря на формальное окончание войны, присутствие США в Ираке продолжалось ещё многие годы, и фактически конфликт завершился лишь в 2011 году. Позднее Саддам Хусейн был захвачен и казнён. После оккупации в Ираке не было найдено ни биологического, ни химического оружия. Также было доказано отсутствие связей между режимом Саддама Хусейна и «Аль-Каидой». Вторжение в Ирак вошло в историю как серьёзная внешнеполитическая неудача США и их союзников. Страна не обрела стабильности, а наоборот, погрузилась в череду внутренних конфликтов и гражданских войн.

***Ключевые слова:*** *США, Ирак, Израиль, политика, история, терроризм, оружие массового поражения.*

# THE 2003 INTERVENTION IN IRAQ: CAUSES, PURPOSES AND CONSEQUENCES

**Gunay ALİYEVA**
*Institute of Oriental Studies named after Academician Z. M. Bunyadov, Azerbaijan National Academy of Sciences, Senior Laboratory Assistant*
*E-mail: liyeva17@inbox.ru*

*Date of submission: 17.11.2025*
*Date of revision: 15.03.2026*
*Date of acceptance for publication: 21.05.2026*

## ABSTRACT

Due to its importance, the Middle East, including Iraq, has been a conflict zone in almost all periods of human history. Political, economic, cultural, social and ethnic diversity used to enhance clashing political and economic interests. The availability of natural resources, the absence of democratic regimes, the region's rich national resources were behind emerging regional conflicts and international encroachments that and turned The Near East into one of the most unstable regions in the world. After the terrorist attacks of September 11, the United States, a superpower of the world with specific interests in the region, under the pretext of fighting terrorism sent its troops to Afghanistan and then to Iraq. The "World Gendarmerie" has declared that Iraq is a threat to the whole world. For this reason, the US government has put forward baseless claims such as Iraq's connection with the Al-Qaeda terrorist organization and the presence of biological and chemical weapons in the country. The counter-propaganda carried out by the United States in the Iraqi army and the Iraqi people was one of the reasons that also contributed to the outbreak of the war. The Iraq war began on March 19, 2003, with George Bush's announcement, address to the world and on may 1 of that year, was declared to have ended. Later, Saddam Hussein was captured and executed. Although the war ended, the US presence in the country continued for few years more and actually ended in 2011. After the occupation, no biological or chemical weapons were found in the country. It has also been proven that Saddam Hussein had no connections with Al-Qaeda. The invasion of Iraq has gone down in history as a failed step policy by the US and coalition forces. Contrary to expectations, the country has become the center of conflict and war.

***Keywords:*** *USA, Iraq, Israel, policy, history, terrorism, weapon of mass destruction.*

**Giriş**

Ərəb dünyasının, xüsusən də Yaxın Şərqin strateji-coğrafi mövqeyi, neft ehtiyatlarının bolluğu, geniş iqtisadi potensialının və İslam dininin fonunda formalaşmış mədəni və mənəvi dəyərlərinin mövcudluğu Qərbi, əsasən də ABŞ-ı daima narahat etmişdir. Regionda öz nəzarətini və hegomonluğunu bərqərar etmək istəyən ABŞ bu səbəbdən ərəb dövlətlərini cilovlamağa, onların daxilindəki parçalanma və münaqişələrdən faydalanmağa səy göstərmişdir. İkinci dünya müharibəsindən sonra SSRİ-nin güc və təsirini yox etmək məqsədi ilə üçüncü dünya ölkələrinə, o cümlədən Yaxın Şərqə yönəlmiş siyasəti nəticəsində region ölkələri ilə əlaqələrini genişlətmiş və tədricən regiona müdaxilələr etməyə başlamışdır. Soyuq müharibənin başa çatması ilə ABŞ-ın dominantlığı altında formalaşan təkqütblü dünya nizamının yaranması, SSRİ-nin dağılması, ərəb ölkələri arasında baş verən müharibə və münaqişələr ABŞ-ın regionla bağlı planlarının gerçəkləşməsinə təkan verən əsas amillər olmuşdur. Körfəz ölkələrinə xüsusi əhəmiyyət verən ABŞ “Karter doktrinası” ilə regiona müdaxilə edəcək hər hansı bir xarici qüvvəni özü üçün təhdid olaraq gördüyünü bəyan etmiş, beləliklə də, regionu öz nəzarəti altına almışdır. İran-İraq müharibəsi ilə körfəz regionunda meydana çıxan qarşıdurmalar Küveytin işğalı ilə daha da şiddətlənmiş, İraqın ABŞ-ın rəhbərliyi ilə koalisiya qüvvələri tərəfindən işğalına zəmin yaratmışdır.

İraq müharibəsi və ya digər adı ilə İkinci Körfəz Müharibəsi 2003-cü ildə ABŞ-ın rəhbərliyi altında koalisiya qüvvələrinin İraqa müdaxiləsi ilə başlanmışdır. ABŞ-ın regiona ikinci müdaxiləsi olduğu üçün beynəlxalq aləmdə İkinci Körfəz Müharibəsi adlandırılsa da, İran-İraq müharibəsindən və İraqın Küveyti işğal etməsindən sonra körfəzdə baş verən üçüncü müharibə olduğu üçün ərəbdilli mənbələr bu müharibəni Üçüncü Körfəz Müharibəsi adlandırırlar. Müharibə rəsmi olaraq 2003-cü ilin martında başlasa da, onun reallaşması üçün zəmin hələ 1990-cı ilin avqust ayında İraqın Küveytə təcavüzü nəticəsində formalaşmışdır. Küveytin işğalından, daha sonra isə ABŞ və koalisiya qüvvələrinin hərbi müdaxiləsi ilə Küveytin işğaldan azad edilməsindən sonra ABŞ və onun hədəf obyektinə çevrilmiş İraq arasında tez-tez qarşıdurmalar baş vermiş, bu vəziyyət 2003-cü ildə baş vermiş müharibəyə qədər davam etmişdir. Həmçinin 2001-ci ilin 11 sentyabrında ABŞ-da törədilən terror aktı da İraq və ABŞ arasında münasibətlərin gərginləşməsinə səbəb olmuş, beləliklə də, ABŞ Əfqanıstana qarşı hərbi əməliyyatlarından sonra terrorla mübarizə adı altında İraqı hədəf almışdır.

**Müharibənin tarixi zəmini:**

Soyuq müharibə dövründə İraq SSRİ ilə sıx əməkdaşlığa malik idi. Xüsusən də 1958-ci il çevrilişindən və BƏƏS partiyasının hakimiyyətə gəlməsindən sonra SSRİ-yə meyl artmış və 1980-ci illərə qədər SSRİ ilə hərb və ticarət sahələrində əməkdaşlıq xarici siyasətin əsasını təşkil etmişdir. Digər tərəfdən isə, İkinci dünya müharibəsindən sonra xarici siyasətini öz strateji maraqlarını qorumağa yönəltmiş ABŞ Truman və Eyzenhauer doktinaları vasitəsilə Yaxın və Orta Şərq ölkələri ilə əməkdaşlıq yaradaraq SSRİ-nin təsirini regionda azaltmağa çalışırdı. ABŞ-ı regionda İrandan sonra narahat edən ikinci ölkə İraq idi. Səddam Hüseynin hakimiyyət illərində hərbi və iqtisadi cəhətdən regionda ən güclü dövlətə çevrilmiş İraq ABŞ üçün təhdid ünsürü olaraq görülürdü. Buna görə də, hər iki ölkənin hərbi və iqtisadi cəhətdən zəifləməsi onun əsas məqsədlərindən biri idi. 1979-cu il İran İslam İnqilabı və 1980-1988-ci illərdə İran və İraq arasında baş verən müharibə bu nöqteyi-nəzərdən böyük bir fürsət oldu və ABŞ-ın İrana labüd hərbi müdaxilə planlarını ortadan qaldırdı. Xüsusilə İrandakı hakim rejimə qarşı əks mövqedə olan ABŞ müharibə dövründə tərəflərdən heç birinin üstünlük qazanmaması və qalib olmaması üçün ikili siyasət aparmışdır. Müharibə müddətində İraq və ABŞ arasında strateji olaraq meydana gələn yaxınlıq iki ölkə arasında sıx əməkdaşlıq yaratmasa da, münasibətlər müvəqqəti olaraq bərpa olunmuşdur. Belə ki, İraqı silahla təmin etməklə yanaşı, İsrailin də İranla hərbi əməkdaşlığını dəstəkləyərək hər iki tərəfin müharibədən böyük zərərlə çıxmasına səbəb olmuşdur (Bigaç, 2020, s.6) (السهلي, 2012, s.19).

İran-İraq müharibəsi XX əsrdə iki qonşu müsəlman dövləti arasında baş verən ən uzunmüddətli müharibələrdən biri idi. Müharibə regionda sabitliyi pozaraq xarici qüvvələrin bölgəyə müdaxiləsinə yol açdı. Hər iki ölkənin iqtisadiyyatı müharibədən böyük zərər görsə də, müharibə dövründə İraqın

hərbi imkanları və təcrübəsi genişləndi, inkişaf etmiş hərbi bazası, güclü döyüş və silahlanma imkanları ilə regionun güclü faktoruna çevrildi (رحيمة, 2015, s.16). İran-İraq müharibəsi dövründə nisbətən yaxınlaşan ABŞ-İraq münasibətləri müharibənin bitməsi və İraqın hərbi güc qazanmasından sonra yenidən gərginləşdi. 1990-cı ildə İraqın Küveyti işğal etməsi vəziyyəti daha da pisləşdirdi. ABŞ-ın İraqa müdaxiləsini zəruri edən addım kimi Küveytin işğalı ön plana çıxarılsa da, İraqın strateji həmlələrini öncədən təxmin edən ABŞ, sanki İraq hökumətinin bu gözlənilən addımını sürətləndirməkdə maraqlı idi.

Belə ki, hələ Osmanlı imperiyası dövründə Küveyt İraqın Bəsrə vilayətinə tabe idi. Lakin 1913-cü ildə Osmanlı imperiyası və İngiltərənin birgə razılığı ilə Küveyt muxtariyyət əldə etdi, daha sonra isə 1961-ci ildə İngiltərə Küveyti müstəqil respublika elan etdi. Küveytin müstəqillik qazanmasından sonra İraq ölkəyə dair tarixi haqlarından bəhs etməyə başlamış və Küveytin yenidən İraqın tərkibinə daxil edilməsini tələb etmişdir. Bu tələbin qarşılığında isə Ərəb Dövlətləri Liqası Küveyti üzv dövlət olaraq qəbul etmiş və beləliklə, Küveyt müəyyən qədər öz təhlükəsizliyini bərpa etmişdir. Bu nöqteyi-nəzərdən, hələ əvvəldən Küveytə qarşı ərazi iddiaları olan İraq İranla müharibədən sonra Küveyt kimi neftlə zəngin ölkəni öz ərazisinə ilhaq etməklə iflasa uğramaqda olan iqtisadiyyatını dirçəltməyi düşünürdü. İranla müharibədən sonra bu müharibəni digər ərəb ölkələrinin təhlükəsizliyini qorumaq məqsədilə həyata keçirdiyini bildirərək Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Küveyt kimi neftlə zəngin ölkələrin müharibə zamanı İraqa dəymiş iqtisadi zərərlərin aradan qaldırılması üçün yardım göstərmələrini tələb etmişdir. Həmçinin Küveytdən borclarının silinməsini və digər ərəb ölkələrinin neft qiymətlərini qaldırmalarını tələb etmişdir (Usta, 2009, s.55).

Səddam Hüseyn Küveytin işğalı ilə bağlı ilk addım olaraq 1990-cı ilin iyulun 16-da Ərəb Dövlətləri Liqasına Küveyti iqtisadi təcavüzkarlıqda günahlandırması ilə bağlı memorandum göndərmişdir. Küveytin İraqla sərhəd bölgəsində yerləşən neft yataqlarının İraqa aid olduğunu, ixtilaflı bölgə olan Rumeyladan kvotalara əməl etmədən neft çıxararaq onu zərərə uğratdığını, İranla müharibə dövründə İraq neftini oğurladığını bildirmiş və Küveytdən 2,4 milyard dollar təzminat istəmişdir (İsmayıl/Axundova/Bağırova, 2013, s.53) (Yaycı, 2019, s.335). Belə bir vəziyyətdə 1990-cı ilin iyulunda ABŞ-ın Bağdaddakı səfiri April Glaspienin verdiyi açıqlama İraqın Küveyti işğal etməsi üçün bir növ yaşıl işıq yandırdı. O, Səddam Hüseynə müraciətlə bildirdi ki, ABŞ-ın sərhəd mübahisəsi daxil olmaqla, İraq və Küveyt arasında mövcud olan hər hansı bir mübahisə ilə heç bir əlaqəsi yoxdur. Həmçinin Amerika generalı Con Kellinin "ABŞ-ın Küveyti müdafiə etmək üçün heç bir öhdəliyi yoxdur" açıqlaması da Səddam Hüseyni Küveytə hücum etməyə cəsarətləndirmişdir (رحيمة,2015,s.16-17).

Beləliklə də, 1990-cı ilin 2 avqustunda İraq qoşunları Küveytə daxil oldu və onu özünün 19-cu vilayəti elan etdi. Beynəlxalq ictimaiyyət bu işğalı pisləmiş və 1990-cı ilin 6 avqustunda BMT Təhlükəsizlik Şurası 661 saylı qətnamə ilə İraqa qarşı hərbi və iqtisadi embarqolar tətbiq edilməsini qərara almış, 9 avqustda isə 662 saylı qətnamə ilə Küveytin İraq tərəfindən ilhaqını tanımadığını bildirmişdir. 1990-cı ilin 29 noyabrında qəbul edilmiş 678 saylı qətnamə isə 15 yanvar 1991-ci ilədək İraqın Küveytdən qoşunlarını geri çəkmədiyi təqdirdə hərbi güclə bunun həyata keçiriləcəyini bəyan edirdi. BMT TŞ-nın ard-arda qəbul edilən qətnamələrinə məhəl qoymayan İraq hökuməti Küveytdən geri çəkilməməkdə qərarlı idi. Bu səbəbdən 1991-ci ilin 16 yanvarında ABŞ-ın rəhbərlik etdiyi İngiltərə, Fransa, Səudiyyə Ərəbistanı, Suriya və Misirin daxil olduğu hərbi koalisiya Səhra Fırtınası adı verilmiş əməliyyatla İraqı Küveytdən çıxarmaq üçün Birinci Körfəz müharibəsinə başladı. Nəhayət, fevralın 6-da Küveytin paytaxtı azad edildi. Bundan sonrakı illər ərzində İraqa qarşı sanksiya və embarqolar tətbiq olundu (İsmayıl\Axundova\Bağırova, 2013, s.53-54;Yenal, 2020,s.97).

**Müharibənin iddia olunan səbəbləri:**

İki körfəz müharibəsi arasındakı dövr ərzində də ABŞ və İraq arasında münasibətlər stabil olmamışdır. Hətta Küveyt işğalından sonra Səddam rejimini devirmədiyi üçün ABŞ prezidenti Corc H. Buş ciddi tənqidə məruz qalmışdır. (Boz, 2024, s.53) Birinci Körfəz müharibəsindən sonra BMT TŞ İraqla bağlı bir sıra qətnamələr qəbul etdi. Bu qətnamələrə və İraqın məruz qaldığı dağıntılara

əlavə olaraq 1991-ci ilin aprelində 687 saylı qətnamə qəbul edildi. Bu qətnaməyə əsasən İraqda atəşkəsin hökm sürməsi və kütləvi qırğın silahlarının yox edilməsi qərara alındı. Bunun üçün isə, 715 saylı qətnaməyə əsasən təftiş komitəsi təşkil olundu və silahlarla bağlı axtarış səlahiyyəti Beynəlxalq Atom Enerjisi Agentliyinə və BMT-nin Xüsusi Komitəsinə (UNSCOM) verildi (Okur,2008,s.165). UNSCOM-un axtarışları nəticəsində 1994-cü ilin sonu İraqda tapılan kimyəvi silahların məhv edildiyi, bioloji silahların isə ölkədə mövcud olmadığı bildirilmişdir. Həmçinin, UNSCOM rəhbərliyi İraqın qonşu dövlətlər üçün təhlükə yaradacaq potensiala sahib olmadığını açıqlamışdır.

1998-ci ilə qədər İraq hərbi obyektlərinin beynəlxalq müfəttişlər tərəfindən araşdırılması davam etmişdir. Lakin bir müddət sonra İraq hakimiyyəti BMT-nin Xüsusi Komitəsinin müfəttişlərini ABŞ üçün casusluq etməkdə ittiham etmiş və kəşfiyyat komissiyasını ölkədən çıxarmışdır. Bunun əsasında ABŞ və İngiltərə 1998-ci ilin 16-20 sentyabr tarixlərində İraqa qarşı yönəlmiş “Səhra Tülküsü” adlı əməliyyatla ölkəni bombalamağa başlamışdır. Əməliyyatın məqsədi Səddam Hüseyni beynəlxalq qətnamələrə əməl etməyə məcbur etmək və İraqın hərbi potensialını zəiflətmək idi. Bütün bunlardan sonra İraq hökuməti UNSCOM-un ölkəyə yenidən qayıtmasına icazə verməmişdir. Bundan sonra, BMT TŞ-nın 17 dekabr 1999-cu ildə qəbul etdiyi 1284 saylı qərarla İraqda kütləvi qırğın silahları ilə bağlı axtarış BMT-nin Monitorinq, Yoxlama və Təftiş Komissiyasına (UNMOVİC) həvalə edildi (رحيمة, 2015, s.22; Tahiroviç, 2012, s.37-38).

1990-cı illərin əvvəllərindən ölkəyə qarşı tətbiq edilən sanksiyaların Səddam Hüseynin neft gəlirləri ilə kütləvi qırğın silahları istehsal etməsinin qarşını almaq məqsədilə tətbiq edildiyi bildirilirdi. Lakin ölkədə varlığı təsdiqlənməyən kütləvi qırğın silahları bəhanəsi ilə 2003-cü il müharibəsinədək İraqa tətbiq olunmuş amansız sanksiyalar ölkədə səhiyyə, təhsil, iqtisadiyyat, ətraf mühitin təhlükəsizliyi daxil olmaqla həyatın bütün sahələrində mənfi nəticələrə səbəb oldu. Siyasi və iqtisadi cəhətdən təcrid olunma İraqı geridə qalmış ölkələrdən birinə çevirdi. On üç il ərzində davam edən blokada əslində Amerikanın Yaxın Şərqə hakim olmaq strategiyasının bir parçası idi. Belə ki, 2000-ci ildə Corc Buş prezident seçildikdən sonra ABŞ-ın İraqa qarşı daha aqressiv siyasətə keçdiyi müşahidə olunur.

Kəşfiyyat xidmətinin İraqın kütləvi qırğın silahları ilə bağlı icmalını yazıb dövlət katibi Kolin Pauelə təqdim edən müfəttişlərdən biri olan Qreq Battleman 2001-ci ilin payızındakı hesabatında İraqın nüvə proqramını yenidən qurmasına dair heç bir dəlil olmadığını bildirmişdir. Buna baxmayaraq, Buş administrasiyası Səddam Hüseynin müfəttişləri aldatdığını, silahları gizlətdiyini bildirmiş və İraqın beynəlxalq aləm üçün təhdid və təhlükə ünsürü olduğu ilə bağlı iddialarında israr etmişdir (رحيمة, 2015, s.27-28).

2001-ci ilin 11 sentyabrında Əl-Qaidə terror təşkilatının 19 üzvü tərəfindən ABŞ-a qarşı terror aktı törədildi. Həmin gün ABŞ-ın dörd təyyarəsi qaçırıldı. Daha sonra həmin təyyarələrdən ikisi Nyu-Yorkdakı qoşa qüllələrə çırpıldı. Üçüncü təyyarə Vaşinqtonu hədəf alsa da, Pensilvaniyaya düşdü. Dördüncü təyyarə isə Pentaqona çırpıldı və binanın bir hissəsinin çökməsinə səbəb oldu. Hadisələrdən sonra FBI və CIA təyyarələrin pilotluq təlimi almış ərəb əsilli dəstələr tərəfindən qaçırıldığını və əvvəlcədən müəyyən edilmiş hədəflərə zərbələr endirildiyini açıqlamışdır. Hadisədən sonra Corc Buş bu terrorun təkcə ABŞ-a qarşı deyil, bütün dünyaya qarşı törədilmiş terror aktı olduğunu və bütün dünyanın təhlükə ilə üz-üzə qaldığını açıqlamışdır (Usta, 2009, s.133-135). Hücumun olduğu gün Əfqanıstana qarşı hərbi əməliyyata başlamaq qərarına gəlinsə də, danışıqlar zamanı Amerika müdafiə naziri Donald Ramsfeld və onun köməkçisi ilk hədəf olaraq İraqın seçilməsini təklif etmiş, lakin xarici işlər naziri Kolin Pauel və vitse-prezident Dik Çeyni İraqa qarşı hər hansı bir addım atmaq üçün doğru zaman olmadığını bildirmişlər. Corc Buş isə İraqın terror hadisəsi ilə əlaqəsi olsa da, əldə əsaslı dəlillər olmadığı üçün ilk hədəfin Əfqanıstan və Əl-Qaidə olduğunu bildirmişdir (Boz, 2024, s.54).

11 sentyabr terror hadisəsi təkcə ABŞ üçün deyil, bütün beynəlxalq əlaqələr və ölkələrarası nizam üçün dönüş nöqtəsi oldu. Qlobal miqyasda “terrorla mübarizə”, “islamafobiya”, “şər oxu” kimi anlayışlar ortaya çıxdı. Beləliklə, terrorla mübarizədə ABŞ-ı dəstəkləyən və dəstəkləməyən dövlətlər olmaqla iki qütb formalaşdı. Prezident Corc Buş dünya ictimaiyyətinə bildirdi ki, bu mübarizədə bizə

qoşulmayanlar, eyni zamanda ABŞ-a düşmən olan dövlətlərdir. Bir çox ölkə Əl-Qaidə lideri Usama bin Ladenin yaşadığı və Əl-Qaidənin Talibanın qoruması altında fəal şəkildə fəaliyyət göstərdiyi Əfqanıstana qarşı ABŞ-ın başladığı müharibəni dəstəklədi. ABŞ bu mübarizədə onu dəstəkləməyən ölkələri "Şər Oxu" adlandırdı. Bu ölkələr isə İran, İraq, Suriya, Liviya və Şimali Koreya idi (الألوسي, 2012, s.24).

Artıq 2001-ci ilin 28 dekabrından etibarən İraqa qarşı həyata keçirilməsi nəzərdə tutulan hərbi əməliyyatın 4 mərhələli planı hazırlanmışdı. Bu plana daxil olan mərhələlər bunlar idi:

*1-ci mərhələ:* İraq əməliyyatından əvvəl koalisiya yaratmaq və beynəlxalq aləmin dəstəyini qazanmaq;

*2-ci mərhələ:* İraq ordusunun əsgərlərinin mübarizə əzmini qırmaq məqsədilə psixoloji və hərbi əməliyyatlar həyata keçirmək;

*3-cü mərhələ:* İraq ordusunu məğlub etmək və rejimi devirmək üçün hərbi strategiya hazırlamaq;

*4-cü mərhələ:* Yeni qurulacaq İraq hökuməti üçün zəmin hazırlamaq və sabitliyi qorumaq (Demir\ Kavaklı\ Sert, 2020, s.13).

Əfqanıstan əməliyyatından sonra İraqa qarşı hərbi əməliyyatlara başlamaq üçün bəhanə axtaran Buş öz çıxışında bildirmişdir: "Biz bilirik ki, İraq və Əl-Qaidənin illərdir davam edən sıx əlaqələri var. Əfqanıstandakı bəzi Əl-Qaidə liderləri İraqa qaçıb və İraq Əl-Qaidə üzvlərinə bomba istehsalı, zəhərli maddələr və öldürücü qazların hazırlanması üzrə təlimlər keçir. İraq istənilən vaxt terror qruplarını kimyəvi və bioloji silahla təmin edə bilər" (رحيمة, 2015, s.30). Beləliklə, İraqda kütləvi qırğın silahları olması iddialarına terror qrupları ilə əməkdaşlıq iddiaları da əlavə olundu. ABŞ, İraqın terror qruplarını dəstəklədiyini, ölkədəki kütləvi qırğın silahlarının terrorçuların əlinə keçmə təhlükəsi olduğunu və ölkədə kütləvi qırğın silahlarının istehsal olunduğunu vurğulayırdı. Həmçinin İraq xalqının diktator Səddam Hüseyn rejimindən xilas edilərək ölkədə demokratiyanın bərqərar olunmasının vacibliyini önə sürürdü.

Bundan sonra BMT Təhlükəsizlik Şurasının kütləvi qırğın silahları ilə bağlı 1441 saylı qətnaməsi 8 noyabr 2002-ci ildə qəbul edildi. Bu qətnamədə İraqın daha əvvəl qəbul edilmiş qətnamələrə əməl etmədiyi və silahsızlanma baxımından öhdəliklərini yerinə yetirməsi üçün ona son fürsət verildiyi bildirilirdi. Səddam Hüseyn 13 noyabr 2002-ci ildə 1441 saylı qətnaməni qəbul etdi və axtarış üçün müfəttişlərin ölkəyə gəlməsinə icazə verdi. 2003-cü ilin fevralına qədər İraqdakı nüvə silahlarına dair kifayət qədər dəlil tapılmadı. İraqda araşdırmalarını tamamlayan UNMOVİC direktoru Hans Bliks BMT-nin fevralda keçirilmiş iclasında İraqda kimyəvi və bioloji silahlara rast gəlinmədiyini açıqladı. Lakin bunun qarşılığında ABŞ-ın o vaxtkı dövlət katibi Kolin Pauel etiraz edərək İraqın kütləvi qırğın silahlarına sahib olduğunu və onları gizlətdiyini iddia etdi. Pauel əlavə olaraq İraqın Əl-Qaidə ilə əlaqəsi olduğuna dair əsassız dəlillər də irəli sürmüşdür (Bulus, 2022, s.836-837) (Okur, 2008, s.171).

1441 saylı qətnamə qəbul edilməmişdən hələ bir ay əvvəl 11 oktyabr 2002-ci ildə ABŞ konqresi Buşa İraqa qarşı həyata keçiriləcək əməliyyatlarda Amerika hərbi qüvvələrindən istifadə hüququ vermişdi. Bu qərar ABŞ Nümayəndələr Palatasında 133, Senatda isə 23 səslə qəbul edilmişdir (Boz, 2024, s.56). Beləliklə, prezident Corc Buş İraq rejiminin BMT-nin 1441 saylı qətnaməsinə, Beynəlxalq Atom Enerjisi Agentliyinin və BMT-nin Monitorinq, Yoxlama və Təftiş Komissiyasının (UNMOVİC) tələblərinə əməl etməyərək ölkədə gizli şəkildə kütləvi qırğın silahları saxladığını irəli sürdü və beynəlxalq aləmi İraqdakı hakim rejimi devirməyə, ölkədə ABŞ dəyərlərini yaymağa səslədi. Bundan sonra ABŞ-ın rəhbərliyi ilə beynəlxalq koalisiya qüvvələri 2003-cü ilin 17 martında İraqın işğalına başladı. ABŞ nümayəndəsinin BMT TŞ-nın sədrinə ünvanladığı məktubda müdaxilənin səbəbləri bir neçə maddə şəklində göstərilmişdir:

1. İraqa qarşı hərbi əməliyyatlar BMT TŞ-nın müvafiq qətnamələrinə, o cümlədən tərksilahla bağlı 1441 saylı qətnaməyə məhəl qoymaması səbəbindən zəruridir və bu hərbi əməliyyatlar İraqın öhdəliklərini yerinə yetirməsini təmin edəcək.

2. TŞ-nın 687 saylı qətnaməsi İraq üzərinə tərksilah və atəşkəs öhdəlikləri qoymuşdur. 678 saylı qətnamə isə 687 saylı qətnaməyə məhəl qoyulmadığı təqdirdə ölkəyə qarşı güc tətbiq etmək səlahiyyəti verir.

3. İraq 1441 saylı qətnamə ilə təsdiqlənən 687 saylı qətnamənin öhdəliklərini yerinə yetirmir. İraqın hərtərəfli və müasir bəyannamə təqdim etməməsi və qətnamənin həyata keçirilməsində tam əməkdaşlıq etməməsi əhəmiyyətli bir qanun pozuntusudur.

4. Koalisiya qüvvələrinin gördüyü tədbirlər ABŞ və beynəlxalq ictimaiyyəti İraqın yaratdığı təhlükədən müdafiə etmək, beynəlxalq və regional sülh və təhlükəsizliyi bərpa etmək üçün lazımi addımları əks etdirir. İraq rejiminə qarşı cavab tədbirlərinin gecikməsi dövlətin hədələyici və qeyri-qanuni davranışlarını davam etdirməyə imkan verəcək (صابر, 2015, s.28-29).

**Müharibənin başlanması və gedişatı**

Hərbi müdaxilə ilə bağlı yekun qərardan sonra razılığa gələ bilinmirdi. Ölkələr iki bloka ayrılmış vəziyyətdə idi. Bunlardan biri Fransa və Almaniya ilə eyni fikirdə olan, diplomatiyanın və silahlara nəzarətin davam etməsinin lazım olduğunu müdafiə edən müharibə əleyhdarı olan blok idi. Digəri isə İngiltərə, Portuqaliya, İtaliya, İspaniya kimi ölkələrin olduğu ABŞ-ın rəhbərlik etdiyi müharibə tərəfdarlarından ibarət blok idi (Bigaç, 2020, s.10). Hərbi əməliyyatlara keçmiş ABŞ dövlət katibi Ceyms Beyker və Əfqanıstandakı müharibəyə də rəhbərlik edən general Tommi Frank başçılıq edirdi. Koalisiya qüvvələrinin hücum planına eyni vaxtda Türkiyə və Küveytdən döyüşə başlamaq daxil idi. Lakin Türkiyə hökumətinin müharibə zamanı öz ərazisindən istifadə etmək üçün icazə verməməsi onların planının dəyişməsinə və yalnız cənubdan irəliləmək məcburiyyətində qalmalarına səbəb oldu (رحيمة, 2015, s.47).

2003-cü ilin martında başda ABŞ olmaqla, İngiltərə, Polşa, Avstraliya, İspaniya, Danimarka və İtaliya müharibə üçün hərbi hazırlıqlara başladı. ABŞ prezidenti Corc Buş 17 Mart 2003-cü ildə öz çıxışında Səddam Hüseynin Bağdadı təslim edərək iki oğlu ilə birgə İraqı tərk etməsi ilə bağlı ultimatum verdi. Bu tələbləri yerinə yetirmək üçün Səddam Hüseynə 48 saat vaxt verildi. (Rayburn, Sobchak, 2019, s.81) 2003-cü ilin mart ayında ABŞ-ın rəhbərliyi ilə yaradılmış koalisiyada ilkin siyahıya görə 49 ölkə var idi. Lakin onlardan bir qismi adlarının açıqlanmasını istəmədiyi üçün rəsmi olaraq 35 ölkənin adı qeyd olunmuşdur (Carney, 2011, s.5).

İraqa qarşı hücum əməliyyatları 2003-cü il martın 20-də Bağdad vaxtı ilə təxminən səhər saat 5:35 radələrində başladı. Bu vaxt ABŞ prezidenti Buş tərəfindən Səddama verilən 48 saatlıq müddət bitmiş və hətta saat yarım keçmişdi. ABŞ Dövlət Departamenti İraqın bütün ölkələrdəki səfirliklərini bağlamaq əmri verdi (محمود, 2019, s.26). ABŞ Hava Qüvvələri Bağdadı atəşə tutmağa başladı. Əvvəlcə içərisində Səddam olduğu güman edilən Bağdaddakı bəzi binalar hədəf alınaraq raket hücumuna məruz qaldı. ABŞ komandanlığı Səddam Hüseynin bu hücum zamanı öldüyünü ehtimal etsə də, bir müddət sonra Səddam Hüseyn televiziyadan çıxış edərək xalqı işğalçılara qarşı mübarizəyə çağırdı. Axşam saatlarında Amerika və Britaniya qüvvələri İraq ərazisinə daxil olmaq üçün Küveyt ərazisindən sərhədi keçərək Bağdaddan cənubda yerləşən Nəsiriyyə şəhərinə doğru irəlilədilər və burada güclü müqavimətlə qarşılaşdılar (الألوسي, 2012, s.48).

İşğalçı qüvvələr və İraq ordusu arasındakı ilk döyüş Um-Qəsrdə baş verdi. Əsas təchizat nöqtələrindən biri olduğu üçün Um-Qəsr limanı koalisiya qüvvələrinin ilk hədəfi idi. 21 martda müttəfiq qüvvələr İraqın cənubuna doğru irəlilədilər və yeni Um-Qəsr hava limanı ərazisini ələ keçirdilər. Lakin köhnə Um-Qəsr şəhərində İraq ordusunun gözlənilməz müqaviməti ilə rastlaşdıqları üçün bir neçə günlük döyüş baş verdi. 25 martdan etibarən şəhəri tam olaraq idarə etməyə başlayan koalisiya qüvvələri nəhayət limanı təhlükəsiz elan etdi və Um-Qəsr limanından istifadə olunmağa başlanıldı (محمود, 2019, s.200).

Qısa müddətdə müharibə Nəsiriyyəyə keçdi. Nəsiriyyə döyüşü 2003-cü ilin 23 mart-2 aprel tarixlərində davam etmişdir. Koalisiya qüvvələri Nəsiriyyə, Səmavə və Zubeyrə daxil olduqda gözlənilmədən İraq ordusu əvəzinə Səddamın Fədailəri ilə qarşılaşmışdır. Şəhərdə baş verən toqquşmalar zamanı ABŞ ordusu çox sayda itki vermişdir (Rayburn, Sobchak, 2019, s.86).

Müdaxilədən üç həftə sonra ABŞ ordusunun 3-cü Piyada Diviziyasının başçılıq etdiyi koalisiyanın quru qoşunları Bağdada doğru hərəkət etdi. İraq Özəl Respublika Qvardiya dəstələri şəhərin müdafiəsinə rəhbərlik edirdi. Müdafiəçilərin qalan hissəsi Respublika Qvardiyası bölmələri, nizami ordu bölmələri, Səddamın Fədailəri və iraqlı olmayan ərəb könüllülərindən ibarət idi. 5 Apreldə ABŞ qüvvələri Bağdad hava limanına "Göy gurultusu" adlandırılan hücum həyata keçirdi və güclü müqavimətlə rastlaşdılar, lakin hava limanını ələ keçirməyi bacardılar. Ertəsi gün 3-cü Piyada Diviziyasının başqa bir briqadası Bağdad şəhər mərkəzinə hücum etdi və şiddətli döyüşlərdən sonra Səddam Hüseynin iqamətgahlarından birini işğal etdi. İraqlılar hava limanının yaxınlığındakı ABŞ qüvvələrinə tələfat verməyi bacardılar, ancaq hava bombardmanından ciddi itki aldılar. İqamətgahın ələ keçirilməsindən və televiziyada xəbərlərin yayılmasından bir neçə saat sonra ABŞ Bağdaddakı İraq qüvvələrinə təslim olma əmri verdi, əks halda şəhər geniş miqyaslı bir hücumla qarşılaşacaqdı (محمود, 2019, s.265-266, 271).

Bağdad hava limanı ətrafındakı döyüş zamanı ABŞ-ın neytron bombasından istifadə etdiyi güman edilir. Hava limanı yaxınlığındakı insanlar güclü partlayış səsi eşitdiklərini və bundan sonra tərəflər arasındakı mübarizənin səngidiyini bildirirlər. Yaxınlıqdakı sakinlər dəhşətli səs və dağıntıya səbəb olan bu silahların növünü təyin edə bilmədiklərini qeyd edirlər. Döyüşlər zamanı həlak olanların ailələri cəsədləri tələb etsələr də, bu tələblərə cavab verilməyib. Britaniyalı jurnalistlərdən biri cəsədlərin şəkillərə yansıyan təsvirindən bəhs edərkən bildirib ki, onlar əriməyə yaxın bir vəziyyətdə olub. Bu səbəbdən ABŞ-ın canlıları məhv edən, lakin infrastruktura zərər verməyən kiçik ölçülü neytron bombalarından istifadə edərək qalib gəldiyi düşünülür. Rusiya, Hindistan, o cümlədən, bir sıra ərəb ölkələrinin KİV-i bu məsələni işıqlandırsa da, Qərb mediası bu barədə heç bir açıqlama verməmişdir (محمود, 2019, s.239-240). Amerika hərbi komandirləri üzləşdikləri ən təhlükəli döyüş olduğu üçün bu döyüşü “Qara gecə” adlandırmışdılar. Çünki İraq qüvvələri tərəfindən güclü müqavimətlə rastlaşdılar və bu güclü müqaviməti neytron bombasından istifadə etməklə məğlub edə bildilər. Beləliklə də, qısa müddətdə çox sayda İraq qüvvəsini məhv etdilər.

Harada olduğu bilinməyən Səddam Hüseyn uzun müddət sonra aprelin 9-da ABŞ qüvvələri Respublika Sarayını və digər mərkəzi binaları ələ keçirdiyi zaman Bağdadın şimalındakı Əzəmiyyə bölgəsində son dəfə ictimaiyyət qarşısında çıxış edərək xalqını salamladı və ölmədiyini açıqladı. Bu çıxış lentə alındı və İraq televiziyası tərəfindən yayımlandı. Həmin gün Bağdad koalisiya qüvvələri tərəfindən rəsmi olaraq işğal edildi. Lakin Bağdadın böyük bir hissəsi hələ də zəbt edilməmişdi və döyüşlər davam edirdi. Səddam Hüseyn və yaxın tərəfdaşlarının harada olduğu məlum deyildi. Ən önəmli hadisə Bağdadın Firdovs Meydanındakı böyük Səddam heykəlinin devrilməsi oldu. Beynəlxalq mətbuatın və ABŞ-ın dəstəklədiyi 100-ə yaxın iraqlı milisdən ibarət izdihamın iştirakı ilə Firdovs meydanındakı 20 fut hündürlüyündəki heykəl dağıdıldı. Həmçinin prezidentin şəhərdəki portret və şəkil kimi digər simvol və nişanələri də məhv edildi.

Amerikalılar Səddam Hüseyn və tərəfdaşlarının Bağdadın Əzəmiyyə bölgəsində olması ilə bağlı şayiələr eşitməyə başladılar. Aprelin 10-da səhər tezdən onu ələ keçirmək üçün oraya üç ABŞ donanması göndərildi və raket, əl bombası, minaatan və avtomatlarla ağır atəşə tutuldu. Əzəmiyyədəki imam Əbu Hənifə məscidi yaxınlığında dörd saatlıq şiddətli döyüş baş verdi. Döyüş zamanı 1 nəfər həlak oldu, 20-dən çox adam isə yaralandı. Lakin Səddam və onun tərəfdaşları tapılmadı (محمود, 2019, s.275-276).

2003-cü ilin may ayında müharibə sona çatmış hesab edilsə də, ilin sonunadək meydana gələn qarşıdurmalarda hər iki tərəf itki verməyə davam etmişdir. Koalisiya qüvvələrinin müharibədən sonra meydana gələn qarşıdurma və münaqişələrdə verdikləri itkilərin artımı diqqət çəkən amil olmuşdur. Hakimiyyətin devrilməsindən və ölkənin koalisiya qüvvələrinin idarəsi altına keçməsindən sonra dövlətdə yaranan hakimiyyət boşluğu səbəbindən ölkənin hər yerində regional və məzhəb qarşıdurmaları meydana gəlmişdir. Səddam Hüseynin hakimiyyəti zamanı ölkədən kənarda olan İraq müxalifətindən başqa sünnilər, şiələr, kürdlər və digər bəzi qruplaşmalar ortaya çıxmışdır.

Ölkə ABŞ-ın rəhbərliyi ilə formalaşdırılmış 25 üzvdən ibarət Müvəqqəti İdarəetmə Şurasının idarəsi altına keçdi. İraq Müvəqqəti İdarəetmə Şurasının birinci sədri elan edilən Pol Bremer 12 may

2003-ci ildən 28 iyul 2004-cü ilədək İraqın idarəedici hakimiyyətinin başçısı oldu. İraq İdarəetmə Şurasının yaradılmasından sonra 30 iyulda beş şiə, iki sünni və iki kürdün (Kürdüstan Demokrat Partiyasının rəhbəri Məsud Bərzani və Kürdüstan Vətənpərvərlər Birliyinin rəhbəri Cəlal Tələbani) iştirakı ilə yaradılmış Rəhbərlik Şurası təşkil edildi. 2003-cü ilin oktyabr ayında isə BMT İraqda təhlükəsizlik və sabitliyin qorunması məqsədilə idarəetməni çoxmillətli qüvvələrə həvalə etdiyini bildirən 1511 saylı qətnaməni qəbul etdi (Çelik, 2019,s.15 ) (صابر, 2015, s.67-68).

2004-cü ilin aprel ayı ABŞ qüvvələrinin itkilərinə görə müharibənin ən ağır dövrü olmuşdur. Ümumilikdə 137 əsgər həyatını itirmişdir. Hətta buna görə, həmin aprel ayı "Qanlı Aprel" adını almışdır (Demir, Kavaklı, Sert, 2019, s.20). 2006-cı ilə qədər davam edən məzhəb qarşıdurmaları bu dövrdən etibarən daha da kəskin xarakter aldığından koalisiyanı öz planlarını dəyişməyə məcbur etmişdir. Bu səbəbdən 2006-cı ildən meydana gələn qarşıdurmalar vətəndaş müharibəsi adlandırılmışdır. Sünni qruplaşmalara ilk növbədə Səudiyyə Ərəbistanı dəstək verirdi. Daha sonra İŞİD və Əl-Qaidə terror qrupları, İraqdakı şiə döyüşçülərinin lideri Müqtəda əs-Sədrin hərbiləşdirilmiş təşkilatı olan Mehdi Ordusu ölkədəki gərginliklərin həddsiz dərəcədə çox artmasına səbəb olmuşdur.

2007-ci ilin 29 iyununda BMT TŞ-nın qəbul etdiyi 1762 saylı qətnamə ilə UNMOVİC fəaliyyətini sona çatdırmışdır (Okur, 2008, s.172). Daha sonra isə ABŞ ilə İraq arasında Amerika hərbi qüvvələrinin İraqda qalmaları barədə təhlükəsizlik paktı qəbul edilmişdir. Sənəd Amerika hərbi qüvvələrinin 2011-ci ilin axırına qədər İraqda qalmasını və bundan sonra ölkəni tərk etməsini təsbit edirdi. 2011-ci ilin 31 avqustunda ABŞ, İraqdakı hərbi əməliyyatlarını rəsmi olaraq dayandırdı. İraqın Baş naziri Nuri əl-Maliki bu münasibətlə televiziyadan xalqa müraciətlə bildirmişdir ki, ölkə artıq müstəqilliyinə qovuşub. O, İraqın artıq suveren və müstəqil dövlət olduğunu, ölkəni daxildəki terrorçu qruplardan və kənar qüvvələrdən İraq ordusunun qoruyacağını bildirmişdir. Bu çıxış əməliyyatların dayandırılmasını formal olaraq elan etmək məqsədi daşıyırdı (Demir/Kavaklı/Sert, 2020, s.84)

2011-ci ilin sonunadək İraq ərazisində 50 min nəfərdən ibarət altı hərbi qoşun birləşməsi qalmaqda idi. Onların İraq hərbçilərinə və polislərinə təlim keçməsi məqsədi ilə saxlanıldığı bildirilirdi. Amerikalılar silah daşısalar da, ondan yalnız müdafiə məqsədilə və ya İraq hökumətinin birbaşa əmri ilə istifadə edəcəklərini bildirmişdilər. Bundan başqa, İraqda ekstremistlərin ləğvi ilə məşğul olacaq ABŞ-ın xüsusi təyinatlı qüvvələri də qalmalı idi. Beləliklə, 2011-ci ildə ABŞ öz qoşunlarının böyük bir qismini İraqdan çıxardı. Beləliklə də, ABŞ-ın İraqda uzun illər davam edən varlığı son[U1]a yetmiş oldu. Lakin 2014-cü ildə İŞİD İraqın ən böyük şəhərlərindən biri olan Mosulu ələ keçirdi və İraq ordusunun dörd diviziyasını məhv etdi. Bu hadisədən sonra İraq Təhlükəsizlik Qüvvələrinə dəstək vermək və İŞİD-ə qarşı mübarizə aparmaq üçün ABŞ qüvvələri yenidən İraqa qayıtdı (Demir\Kavakl\Sert, 2020, s.85). Bu mübarizə rəsmi olaraq 2021-ci ildə başa çatsa da, hələ də İraqda ABŞ-ın hərbi bazası qalmaqdadır. Bu hərbi qüvvələrin də tezliklə ölkəni tərk etməsi ilə bağlı müzakirələr davam edir.

**Müharibənin məqsədləri**

Müharibənin bilinən və aydın gözə çarpan əsas məqsədlərindən biri nə qədər ABŞ hökuməti tərəfindən inkar olunsa da, İraqın sahib olduğu neft ehtiyatları idi. Belə ki İraq, dünyada ən böyük neft ehtiyatına sahib ölkələrdən biridir. Buna görə də daima ABŞ kimi böyük dövlətlər üçün maraq mərkəzi olmuşdur. Bundan əlavə İraqın neft yataqlarının yer səthinə yaxın olması da, onun dəyərini artıran əsas amillərdəndir. Çünki bu axtarış və hasilat zamanı neftin az xərclə əldə edilməsi baxımından böyük önəm daşıyır. Neftin əsas məqsədlərdən biri olmaması iddiası o qədər qeyri-real səslənir ki, bunu sübut etmək üçün əsaslı arqument ortaya qoymaq lazım gəlir. Çünki burada belə bir sual ortaya çıxır: Nüvə potensialı real şəkildə mövcud olan Şimali Koreya niyə ABŞ üçün nüvə potensialına malikliyi fərziyyə xarakteri daşıyan İraqdan daha az təhlükəli hesab olunur? İraqın sahib olduğu halda Şimali Koreyanın sahib olmadığı neft ehtiyatları bu məsələdə nə dərəcədə əhəmiyyət kəsb edir?

Amerikalı tarixçi Noam Çomski ABŞ-ın yaxın Şərqdəki mövcudluğunun əsas səbəbinin İraqdakı nəhəng enerji ehtiyatlarına nəzarət etmək olduğunu iddia edir və bunun mübahisəsiz bir səbəb olduğunu qeyd edir (رحيمة,2015,s.35). Amerikalı siyasi şərhçi Fridman Tomasın 2003-cü ildə dərc edilmiş məqaləsində də bildirilir ki, neft İraqa qarşı müharibəyə başlamağın əsas səbəblərindəndir və bunu inkar etmək bizim ağlımıza şübhə etmək mənasına gəlir (رحيمة,2015,s.35). Bunu həmçinin, Entoni Kard Simon "Washington Times" qəzetinin 2002-ci il avqust buraxılışının ilk sayında da ifadə etmişdir. O, hələ müharibədən əvvəl ölkədəki kütləvi qırğın silahları və ya İraqın terrorla əlaqəsi kimi səbəblərə görə yox, dünya neft ehtiyatının 60%-ini özündə cəmləyən İraqdakı təbii sərvətlərə nəzarəti ələ keçirmək məqsədi ilə Amerikanın İraqa hərbi müdaxilə edəcəyini bildirmişdir (رحيمة,2015,s.36). ABŞ-ın İraqa qarşı siyasətindəki əsl məqsədləri gizlətmə səylərinə baxmayaraq, ABŞ prezidentinin iqtisadi işlər üzrə müşaviri Lourens Lindsi 2002-ci ilin sentyabrında bəyan etdi ki, ABŞ-ın İraqa qarşı başladığı müharibənin əsas məqsədi neftdir ( السهلي, 2012, s.35). Bu bəyanat ABŞ rəsmilərindən gözlənilməyəcək qədər səmimi bir etiraf olmuşdur.

İraqa müdaxilə təkcə Amerikanın daxili istehlakı üçün neftə nəzarət məqsədi daşımırdı, bu həm də ABŞ-ın Avropa, Asiya və Yaponiyaya neft-qaz tədarükü üçün əhəmiyyət kəsb edirdi. Bununla bağlı hətta ikinci dərəcəli məqsəd də var idi: neftin açıq bazarda avro ilə deyil, dollarla satışını təmin etmək. Ümumiyyətlə, II Dünya müharibəsindən sonra ABŞ-ın ərzaq müqabilində neft proqramı onun dünya nefti ilə bağlı siyasətini müəyyən edir. Bu baxımdan qara qızıl İkinci Körfəz Müharibəsinin başlanması üçün ən mühüm səbəblərdən biri idi.

İraqa müdaxilənin yalnız neft səbəbilə baş verdiyini demək tam doğru deyildir. Çünki hələ 1991-ci ildən İraqa qarşı tətbiq edilən sanksiyalar səbəbindən İraq nefti ABŞ-ın nəzarətində idi və İraq yalnız BMT-nin Ərzaq və Dərman üçün Neft Proqramı vasitəsilə neft ixrac etmək səlahiyyətinə sahib idi. Həmçinin bütün neft ixracı müqavilələri ABŞ-ın nəzarətində olan xüsusi komitənin təsdiqinə tabe olmuşdu. Eyni zamanda, həmin dövrdə neftin qiyməti çox aşağı idi. Bəzən 1 barel üçün 15 dollardan belə aşağı olduğu müşahidə edilirdi. İraq nefti qaçaqmalçılıq yolu ilə BMT-nin səlahiyyətindən kənarda və ya "neft kuponları" adlanan vasitələrlə xeyli aşağı qiymətə satılırdı. İraq prezidenti Səddam Hüseyn dəfələrlə ABŞ-ın İraqa müdaxiləsinin baş verəcəyi təqdirdə neft qiymətlərinin 100 dolları aşacağını bildirmişdi və bu, daha sonra həqiqətən də baş verdi (الألوسي, 2012, s.24). Bu nöqteyi-nəzərdən ABŞ-ın beynəlxalq bazarda ucuz və asanlıqla əldə edilən neftə nəzarət etmək üçün belə böyük zərər və itkilərə səbəb olan müharibəyə girməsi məntiqə sığmazdı.

Bu səbəbdən diqqətdən kənar qalan daha vacib bir amilə də nəzər salmaq lazımdır. Bu isə İsrailin 1948-ci ildən İsrail dövlətini tanımayan, onunla heç bir müqavilə, hətta atəşkəs sazişi imzalamayan yeganə ərəb dövlət başçısı olan Səddam Hüseyn və onun rejiminə qarşı əks mövqeyi idi. İraq prezidenti beynəlxalq iqtisadi blokadada olmasına baxmayaraq, "Fələstindəki qardaşlarımızla bir tikə çörəyi bölüşürük" şüarı ilə İordaniya vasitəsilə işğal olunmuş Fələstinə dərman və ərzaq yardımı göndərərək intifadaya dəstək vermişdir. İraq prezidenti neft proqramı vəsaitlərindən Fələstin xalqına 1 milyard avro məbləğində maliyyə yardımı ayıracağını da bildirmişdir. Bundan sonra qida və dərman yardımı qarşılığında Fələstinli siyasətçi Faruq Qaddumi İraqa səfər etmiş və Bağdadda baş tutan bu görüşdə Səddam Hüseyn kameralar qarşısında İraq ordusunun sionistlərə qarşı vuruşmağa hazır olduğunu bildirmişdir. Həmçinin İraq hər bir fələstinli şəhid ailəsinə 2500 ABŞ dolları məbləğində maliyyə yardımı göstərmişdir (الألوسي, 2012, s.27). Bu, İraqın Həmas ekstremistlərini və digər Fələstin cihadçılarını dəstəklədiyini, həmçinin əl-Qaidə ilə əlaqəsi olduğunu iddia etməyə əsas verən amillərdən biri idi.

Bu nöqteyi-nəzərdən müharibənin ikinci ən vacib məqsədlərindən biri strateji olaraq İsrailin təhlükəsizliyini qorumaq idi. Prezident kiçik Buş öz bəyanatlarından birində regionda tarazlığı İsrailin xeyrinə bərpa etdiklərini bildirmişdir. İraqın malik olduğu hərbi və siyasi güc İsrailin regionda üstünlüyü üçün ən böyük təhdid idi və regionda təsir və gücə malik ölkə kimi onun zəiflədilməsi İsrailin gücünün artması ilə nəticələnəcəkdi. Prezident Buşu müttəfiqi olan İsrailin və ABŞ-ın təhlükəsizliyini qorumaq üçün atdığı addımlarda Müdafiə Naziri Ronal Rumsfeld və Kondaliza Rays

da dəstəkləyirdi. Həmçinin Amerika səfiri Volf sionist varlığın ABŞ üçün əhəmiyyətini vurğulamaq üçün bildirmişdir: "Ərəb nefti bizim üçün İsrail qədər önəmli deyil" (رحيمة, 2015, 36-38). O hesab edirdi ki, İsrailin üstünlüyünü qoruyub saxlamaq Amerika administrasiyasının əsas məqsədlərindən biridir. Bu baxımdan İraqın İsrailə qarşı düşmənçiliyi və onun varlığını qəbul etməməsi ABŞ-ın İraqa hücumunu dəstəkləyən səbəblərdən biri idi.

Bəzi tədqiqatçılar hesab edir ki, 1970-ci illərdən ABŞ regionu İsrail və ABŞ maraqlarına uyğun şəkildə nizamlamaq niyyətindədir. Belə ki, region ölkələrinin zəifləyib parçalanması regionda İsrailin hegemonluğunun təminatı deməkdir. Çünki İsrailin bölgədəki mövcudluğu Amerikanın mövcudluğunun bir uzantısıdır. Beləliklə də, İsrailə qarşı hər hansı təhdid ABŞ üçün təhlükədir. İsrailin təhlükəsizliyini təmin etmək ABŞ-ın əsas strateji məqsədlərindən biri olaraq qalmaqdadır.

ABŞ, İsrail ilə arasındakı güclü müttəfiqliyi hələ də qoruyub saxlamaqdadır. Uzun illərdir davam edən İsrail-Fələstin münaqişəsində beynəlxalq hüquqa zidd olaraq Fələstin ərazisini işğal etmiş İsraili dəstəkləyən ABŞ-ın mövqeyi onun İraq müharibəsinə də İsrailin maraqlarını təmin etmək məqsədilə daxil olma ehtimalını bir daha təsdiqləyir. Hələ uzun tarixi dövr ərzində Fələstin xalqına qarşı amansız siyasət həyata keçirən İsrail, 2023-cü ilin 7 oktyabrından bütün dünyanın gözləri önündə fələstinlilərə qarşı misilsiz bir soyqırımı aktı həyata keçirdi. Xəstəxanaları, uşaqları, qadınları hədəf alan, ölkəyə hər hansı yardımın daxil olmasına imkan verməyən İsrail hökumətinin rəsmiləri bütün dünya ictimaiyyəti qarşısında fələstinlilərin son nəfərədək məhv ediləcəyini açıqladılar. Həkimlər, jurnalistlər, humanitar yardım işçiləri daxil olmaqla, sivil fələstinliləri öldürən və əsir götürən işğalçı İsrail bütün dünya dövlətləri və xalqları tərəfindən pislənildi. Dünya dövlətlərinin əksəriyyətinin İsraillə əlaqələrini kəsdiyi, dinindən, milliyyətindən və irqindən asılı olmayaraq, dünya ictimaiyyətinin etiraz aksiyalarının, İsrail mallarına qarşı boykot tədbirlərinin hökm sürdüyü bu dövrdə ABŞ İsrailə dəstək verməyə davam etdi.

Əl-Cəzirə xəbər saytının verdiyi məlumata əsasən son akademik araşdırmalara görə 2023-cü ilin 7 oktyabrından 2025-ci ilin 7 oktyabrınadək ABŞ-ın İsrailə ən azı 21,7 milyard dollar hərbi yardım etdiyi məlum olub (Salhani, 2025). Aydındır ki, bu qədər böyük miqyaslı ABŞ yardımları olmadan Qəzza əməliyyatını həyata keçirmək mümkün deyildi. Həmçinin qeyd etmək lazımdır ki, Fələstin blokadasını yarmaq və Qəzzaya humanitar yardım aparmaq üçün təşkil olunmuş Qlobal Sumud Donanmasının İsrail tərəfindən qarşısı alınmış və aksiya iştirakçıları qeyri-insani rəftarla üzləşmişdir. Saxlanılan aktivistlərə qarşı pis rəftar və fiziki zorakılıq göstərildiyi, məhbuslara dərman və sudan istifadə etməyə imkan verilmədiyi, qadınların hicablarının dini və humanist dəyərlərə məhəl qoyulmadan çıxarıldığı bildirilib.

Bütün bunlar böyük bir sual doğurur: Həqiqətən də ABŞ-ın məqsədi Yaxın Şərqə demokratiya, əmin-amanlıq gətirmək, humanist dəyərlər yaymaqdırmı? 2003-cü ildə BMT-nin rəsmi təsdiqi olmadan, beynəlxalq ictimaiyyətin böyük bir qisminin yanlış addım hesab etməsinə baxmayaraq, dünyanı İraq rejimindən "xilas etməyə" çalışan ABŞ nə üçün bu gün bütün dünyanın terrorçu və işğalçı hesab etdiyi İsrailin soyqırımına ortaqdır?

İraq müharibəsinin məqsədlərindən biri kimi hesab edilməsə də, müharibənin başlanmasında vacib rol oynayan din amili də nəzərdən qaçmamalıdır. İraqa qarşı sərt mövqeyə səbəb olan əsas amillərdən biri də xristian sionist qüvvələrin İslama və İraqa düşmən münasibət bəsləmələri idi (Hinnebusch, 2007, s.225). 11 sentyabr terrorundan sonra İslama qarşı beynəlxalq aləmdə formalaşmış əks mövqe İraqa olan münasibətdə də özünü büruzə verir. Buş administrasiyası dövründə ABŞ siyasəti ekstremist dini ideologiya üzərində qurulmuşdu. Corc Buş 11 sentyabr terror aktından sonra İslama qarşı sərt mövqe tutmağa başlamış və silahlı islami qüvvələrə qarşı müharibə elan etmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi hətta "İslamafobiya" kimi bir anlayış da ortaya çıxmışdır. Beləliklə də, İraq müsəlman ölkəsi olması və ölkədəki diktatura rejiminin əl-Qaidə terror təşkilatı ilə iddia edilən əlaqələrə malik olması səbəbilə hücuma layiq görülmüşdür.

Həmçinin, Prezident Corc Buş keşiş Billi Qrahanın sadiq şagirdi və Xristian Sionist İttifaqını təmsil edən Metodist məzhəbinin nümayəndəsi olduğu üçün aşağıdakı strategiyaları həyata keçirmək onun əsas prinsipləri idi:

1. Tövratda qeyd olunduğu kimi Nil çayından Fərat çayınadək İsrail dövlətinin qurulması və dünya yəhudilərinin orada toplanması
2. Əqsa məscidinin sökülməsi və onun yerində yəhudi məbədinin tikilməsi (رحيمة, 2015, 39-41).

Bütün bunlar ABŞ-ın İraqa qarşı elan etdiyi müharibənin eyni zamanda, dolayı yolla olsa belə, İslama qarşı müharibə olduğunu sübut edir. Bu müharibə terrorizm və əl-Qaidə ilə mübarizə bəhanəsi ilə İslama və müsəlmanlara qarşı səlib yürüşü xarakteri daşıyır.

Nəticə olaraq deyə bilərik ki, müharibənin bir sıra məqsədləri var idi ki, bunlara ABŞ-ın tələbləri ilə uzlaşmayan, regionda güclü imic və qüdrətə sahib olan Səddam rejimini devirmək, regiona müdaxilə etməklə siyasi proseslərin ABŞ maraqlarına uyğun şəkildə cərəyan etməsini təmin etmək, ölkənin neft ehtiyatlarına nəzarəti ələ keçirmək və İsrailin təhlükəsizliyini təmin etmək daxil idi. Bu səbəblərdən hər hansı birini təklikdə müharibənin məqsədi kimi görmək olmaz. Beləliklə də, bir çox maraqların İraqda toqquşması müharibənin başlamasına və ölkəyə müdaxiləyə səbəb olmuşdur.

**ABŞ-ın İraqda törətdiyi müharibə cinayətləri**

2003-cü il İraq müdaxiləsindən sonra Əbu Qureyb qəsəbəsindəki həbsxana ABŞ-ın müharibə əsirlərini saxladığı həbsxanaya çevrilmişdi. Əbu Qureyb həbsxanası beynəlxalq hüquqa zidd olsa da, hegemon gücün istisna haqlara sahib ola biləcəyini göstərən örnəklərdən sadəcə biri idi. Həbsxanadakı əsirlərə verilən amansız işgəncələr ABŞ-ın beynəlxalq hüququ gözardı etməsini və təktərəfli xarici siyasətini açıq-aydın bəyan edir. Burada saxlanılan əsirlərə tətbiq edilmiş işgəncə görüntülərinin ifşa edilməsindən sonra ABŞ rəhbərliyi məhbuslara qarşı işgəncə, müharibə cinayətləri və insan haqları pozuntusunda ittiham edildi. Buna qarşılıq olaraq ABŞ Müdafiə Naziri Donald H.Ramsfeld və digər ABŞ rəsmləri Əbu Qureybdə baş verənlərin istisna bir vəziyyət olduğunu, ABŞ dövlət siyasəti ilə heç bir əlaqəsi olmadığını bildirmişlər. Lakin ümumilikdə İraqda, Əfqanıstanda və Quantanamo həbs düşərgəsində əsirlərə və düşmən hesab edilən qruplara qarşı həyata keçirilən amansız rəftar və işgəncələr institusional təcrübədən xəbər verir. Həmçinin Beynəlxalq Qırmızı Xaç Komitəsi, Beynəlxalq Amnistiya Təşkilatı və İnsan Hüquqları Təşkilatının bu ərazilərdə apardığı araşdırmalar Əbu Qureyb işgəncələrinin fərdi məsuliyyətdən kənar olduğunu və dövlətin məsuliyyət dairəsinə daxil olduğunu bir daha təsdiqləyir (Arıöz\Öztekin, 2021, s.192).

Əbu Qureyb və Quantanamo həbsxanalarındakı işgəncələrə, ölkədəki bombardman və amansız qətllərə ABŞ administrasiyası tərəfindən terrora qarşı mübarizədə "düşməndən müdafiə" bəhanəsi ilə qismən haqq qazandırılmışdır. Lakin müharibə dövründə dinc sakinlərə qarşı törədilmiş bir sıra qətliamlar diqqəti cəlb edir. 2010-cu ilin aprelində internetə sızan videolar qəzəb və nifrətə səbəb olmuşdur. Videoda 2007-ci ildə ABŞ helikopteri tərəfindən ikisi jurnalist olmaqla, 12 iraqlı mülki şəxsin öldürülməsi əks olunub. Bağdadın Əl-Əmin məhəlləsində kamera daşıyan jurnalist, daha sonra isə yanındakı digər insanlar atəş açılaraq öldürülmüşdür. Kənardan hadisəyə şahid olan avtobus sürücüsü yaralılara yardım göstərmək üçün yaxınlaşdığı zaman pilot onu da öldürmək üçün komandirdən icazə alaraq avtobus sürücüsünə və yanındakı iki oğluna atəş açaraq onları yaralamışdır. Hadisədən sonra isə Amerika əsgərlərinin qaçaraq hadisə yerini tərk etməsi videoda əks olunub. Bundan əlavə Amerika tanklarından birinin qəsdən yaralı mülki şəxsin üzərinə sürüldüyü məlum olub. Bu cinayət İraqın yerli televiziyalarından biri tərəfindən işıqlandırılmış, hadisə şahidləri ilə müsahibələr aparılmış və digər mülki şəxslər tərəfindən təsdiqlənmişdir. Lakin bu xəbər ictimaiyyətin diqqətinə yetəri qədər çatdırılmamış, həm İraq hökuməti, həm də Amerika tərəfindən gözardı edilmişdir.

2006-cı ilin 15 martında İshaqi qətliamı kimi tanınan, ABŞ əsgərləri tərəfindən İshaqidəki bir evə hücum edərək 13 mülki iraqlının ölümü ilə nəticələnən qətliam baş vermişdir. Beşi uşaq, dördü qadın olmaqla ev sakinlərini qətl etdikdən sonra evi partladan əsgərlər bəraət almışdır. ABŞ öz hərbi qulluqçularını təqsirsiz hesab etsə də, İraq hökuməti məsələ ilə bağlı araşdırmaların davam edəcəyini bildirmişdir. Digər bir cinayət hadisəsini isə 2007-ci ildə Belmor Ramos adlı 23 yaşlı amerikan əsgəri törədib. O, dörd iraqlının öldürülməsində təqsirləndirilib və hakim ona 40 il həbs cəzası tələb edib. Lakin müttəhim üç həmkarı ilə birgə bu cinayəti törətdiyini, dörd iraqlı məhbusu öldürərək əlləri və gözləri bağlı çaya atdıqlarını etiraf etdikdən sonra sadəcə yeddi aylıq həbs cəzası almışdır.

Fransanın L`Humanite jurnalına verdiyi müsahibədə Meysi adlı Amerika əsgəri İraqdakı müharibə cinayətlərindən bəhs edib. O bildirib ki, ABŞ-ın İraqda dinc əhaliyə qarşı törətdiyi cinayətlər o qədər çox və dəhşətli idi ki, onları sadalamaq belə çətindir. "Amerikanın İraqda cinayətləri" kitabının müəllifi olan tanınmış jurnalist və yazıçı Əhməd Mənsur əs-Sabil qəzetində dərc olunmuş məqaləsində qeyd edir: "Əsgər Meysi yoldaşlarına və ona iraqlı mülki şəxslərə qarşı törədilməsi əmr olunmuş cinayətlərdən bəhs edən "İraqdakı müharibə cinayətləri" kitabını ABŞ-da çap etdirə bilmədiyi üçün onu Fransada çap etdirmişdi" (الألوسي, 2012, s.151,146).

**Müharibənin nəticələri**

Müharibənin nəticələrinə gəldikdə isə deyə bilərik ki, o həm günahsız insanların, həm də ətraf mühitin, tarixi abidələrin və hərbi infrastrukturun məhv edilməsi ilə nəticələnmişdir. İnsani itkilərdən əlavə həm ABŞ, həm də İraq üçün külli miqdarda maddi itkilərə səbəb olmuşdur. Başda ABŞ olmaqla, koalisiya qüvvələri və İraq ağır itkilərlə üzləşmişdir. Müharibə zamanı koalisiya qüvvələri və İraq ordusunda həyatını itirənlərin və yaralananların dəqiq statistikası hələ də məlum deyil. Müxtəlif mənbələrə əsasən bu say dəyişkəndir. Mənbələrin bəzisində 2003-cü ilin mart-aprel ayları ərzində həyata keçirilən hərbi əməliyyatlarda koalisiya qüvvələrində 172 ölü, 600 yaralı olduğu bildirildiyi halda, İraq ordusunda 5000 nəfərin həyatını itirdiyi göstərilmişdir (Demir\ Kavaklı\ Sert, 2019, s.14). Digər bir mənbədə isə həmin müddət ərzində 2500-dən çox iraqlı mülki vətəndaş, 10000-ə yaxın İraq əsgəri, 51 amerikan və 26 ingilis əsgərinin öldüyü göstərilir. Bundan əlavə 15 media işçisi həlak olmuş, ikisi isə itkin düşmüşdür. Müharibədən sonra 17 milyon iraqlı qida yardımına möhtac qalmışdır (Yücel\Çolakkadıoğlu, 2007, s.84).

Böyük vədlərlə ölkəyə müdaxilə edən və Səddam rejimini devirən ABŞ və koalisiya qüvvələri İraqda mülki vətəndaşların günahsız ölümünə, qaçqın probleminin ortaya çıxmasına, hakimiyyət boşluğu səbəbindən meydana çıxan və ölkəni ağuşuna alan xaos və vətəndaş müharibəsinə səbəb oldu. Müharibədə həyatını itirən iraqlıların sayı barədə məlumatlar 200 minlə 1 milyon arasında dəyişməkdədir. (Demir/Kavaklı/Sert, 2019, s.115) "Opinion Research Business" Mərkəzinə istinadla yayılan xəbərə görə, 2007-ci ilədək İraqda 1,2 milyon insan qətlə yetirilib. Həmçinin keçirilən sorğuların nəticələrinə görə, hər dörd iraqlıdan biri, Bağdadda isə hər iki iraqlıdan biri ailə üzvlərindən birini itirib (الألوسي, 2012, s.173)

2010-cu ilin aprel ayında ABŞ-da ölənlərin sayının 4393 nəfər olduğu bildirilirdi. ABŞ administrasiyasının İraqdakı böyük itkilərlə bağlı yalanları müxtəlif qurumları bu itkilərin monitorinq və hesablamasına sövq etdi. Məsələn, Corciyadan olan Amerika vətəndaşı Maykl Rayt ABŞ ordusunun və müxtəlif KİV-lərinin verdiyi bəyanatlar əsasında ABŞ hərbçilərinin ölümlərini qeyd edən vebsayt yaratmışdır. CNN xəbər saytının məlumatına görə koalisiya qüvvələrinin ümumi itkiləri 3931 nəfəri ABŞ qüvvələri olmaqla, 4237 nəfərdir. O cümlədən, Avstraliyadan 2, Britaniyadan 174, Bolqarıstandan 13, Çexiya, Estoniya, Qırğızıstan, Latviya və Cənubi Koreyadan 1, Polşadan 22, Salvadordan 5, Slovaniyadan 4, İspaniyadan 11, Tailanddan 2, Ukraynadan 18 əsgər həlak olub. Bu rəqəmlər hələ də qeyri-dəqiqdir və koalisiyanın itkiləri bundan xeyli çoxdur. Çünki Britaniya qüvvələrinin 2007-ci ilin sonunadək itkiləri ən azı 180 nəfər olmuşdur. Yaralılara gəldikdə isə internet resurslarından əldə edilən məlumatlara əsasən döyüşdən kənar xəsarətlər nəzərə alınmamaqla 29005 yaralı olmuşdur (الألوسي, 2012, s.108). Lakin Ağ Ev rəsmiləri və ABŞ hərbçiləri İraq əməliyyatı

zamanı koalisiya qüvvələri arasındakı itkilərin sayını gizlətmiş və itkilərin daha az olduğunu bildirmişlər.

İraqda rejim dəyişikliyinin məqsədlərindən biri də sabit, legitim, eyni zamanda ABŞ-a dost dövlət formalaşdırmaq idi. Lakin ölkə uzunmüddətli üsyanla üzləşərək vətəndaş müharibəsinə sürüklənmişdir. Bu nəticə iraqlı mütəxəssislər tərəfindən əvvəldən proqnozlaşdırılmışdı. Bir çoxları Buş administrasiyasının rejim dəyişikliyi ilə bağlı atdığı bu addımı uğursuz hesab etmişdir. ABŞ yalnız zəifləmiş İraq ordusuna qarşı vuruşmağı planlamışdı, uzunmüddətli üsyanla qarşılaşmaq təhlükəsi isə gözdən yayınmışdı. Vaşinqton tez və uğurlu müharibə gözləyirdi. Pol Bremerin İraq ordusunu ləğv etməsi və müqavimətə qoşulmaq üçün on minlərlə təcrübəli və silahlı döyüşçü hazırlaması vəziyyəti daha da gərginləşdirdi. ABŞ təxminən bir ilə yaxın İraq Təhlükəsizlik Qüvvələrini yenidən qurmağı bacarmadı, beləliklə də, ölkədəki hərbi boşluğu məzhəbçi döyüşçülər doldurmuş oldu. Həmçinin, dövlətin təcrübəli məmurları işdən uzaqlaşdırıldı və ölkədə çox sayda narazı işsizlər ortaya çıxmış oldu.

İraqın yenidən qurulması yanlış istiqamətdə yön aldı. Dünyəvi BƏƏS rejiminin çökməsi etnik və dini liderliyin ölkə ərazisində hökmranlığına gətirib çıxardı. ABŞ bu çaxnaşmada ərəblərə qarşı kürdləri, sünnilərə qarşı isə şiələri dəstəkləmə siyasəti həyata keçirirdi. İraqa nəzarətin Yaxın Şərqi kəskin şəkildə dəyişəcəyi, ABŞ tərəfdarı cərəyanları qüvvətləndirəcəyi və İsrailin qüvvətini artıracağı gözlənilirdi. Lakin ABŞ-a Yaxın Şərq liderləri və bölgə ekspertləri tərəfindən müharibənin gözlənilməz fəlakətli nəticələrə səbəb olacağı ilə bağlı xəbərdarlıq edilmişdi. Prezident Hüsnü Mübarək bununla "cəhənnəm qapılarının açılacağından" qorxurdu. Bəşər Əsəd də ABŞ-ın İraqa nəzarət edə bilməyəcəyini proqnozlaşdırırdı. Beləliklə, hadisələr onların haqlı olduğunu sübut etdi.

Müdaxilədən sonrakı bir il ərzində Qərb sorğularında İraqın 82%-i müdaxiləyə qarşı olduğunu, 57%-i isə xarici qoşunların dərhal ölkəni tərk etməli olduğunu bildirdiyi halda, yalnız 5% və daha az iraqlı inanırdı ki, ABŞ İraq xalqına yardım etmək və demokratik dövlət qurmaq üçün müdaxilə edib. 43% isə məqsədin İraq neftini ələ keçirmək olduğunu bildirmişdir (Hinnebusch, 2007, 19-20).

Bəzi mütəxəssislərə görə müharibənin ən böyük xətalarından biri İraq xalqının müdaxiləni qurtuluş və azadlıq kimi qarşılaması və ABŞ tərəfindən ölkəyə demokratiya gətiriləcəyinə inanması idi. Entoni Şədid isə iddia edir ki, iraqlıların milliyyətçi olmaları, ölkənin müstəmləkəçilik təcrübəsi, son illər ABŞ tərəfindən İraqa tətbiq edilən sanksiyalar, Amerikanın İsraillə olan yaxınlığı kimi səbəblər İraq xalqının ABŞ və Britaniyanı xilaskar kimi görməsini qeyri-mümkün edir. ABŞ-ın ölkədəki üsyançı qrupları, məzhəblərarası münaqişələri sakitləşdirə bilməməsi onun məğlubedilməzlik imicini darmadağın etdi və gözlər önünə sərdi ki, asimmetrik müharibə dünyanın ən güclü hərbi qüvvəsini belə çaş-baş qoya bilər.

İraq müharibəsi, həmçinin geostrateji baxımdan bir sıra dəyişikliklərlə nəticələnmişdir. Müharibə regional güc qüvvəsinin, o cümlədən regiondakı tarazlığın dəyişməsinə səbəb olmuşdur. İraqın zəifləməsi İranın maraqlarına xidmət edən bəzi amilləri ortaya çıxarmışdır. Suriya 5000-dən çox insanın ölümünə, böyük mühacir axınına, kimyəvi silahların istifadəsinə səbəb olan vətəndaş müharibəsinə sürüklənmişdir. Kürdüstan proto-dövlətdən faktiki bir muxtariyyətə çevrilmiş, bu isə Türkiyənin böyük narahatlığına səbəb olmuşdur. Bölgədəki sünni-şiə problemi də daha geniş vüsət almışdır.

Müharibənin nəticələrindən biri də beynəlxalq ictimai rəyin ABŞ əleyhinə dəyişməsi oldu. Amerikalı Artur Şlezinger 11 sentyabrdan sonra ABŞ-ı bürüyən rəğbət dalğasının İraq müharibəsindən sonra Amerika militarizminə və təkəbbürünə qarşı qlobal nifrət dalğasına çevrildiyini bildirib. Müharibə nəticəsində dünyada ABŞ-a yaxşı münasibət bəsləyən insanların nisbəti kəskin şəkildə azalıb. Müharibədən bir qədər sonra Time jurnalının keçirdiyi sorğuda avropalıların 84%-i ABŞ-ı dünya sülhü üçün əsas təhlükə hesab edib (Hinnebusch, 2007, s.26).

Müharibə zamanı insan itkilərindən əlavə ətraf mühit və ekologiyaya dəyən zərərlərdən də danışmaq lazımdır. İraq keçən əsrin yetmişinci illərinədək dünyanın ən təmiz ətraf mühitinə sahib ölkələrdən biri idi. Müharibələr səbəbilə İraq torpaqları sistematik şəkildə məhv edilmiş və

çirklənmişdir. Eyni zamanda torpaq kütləvi qırğın silahlarının sınaq laboratoriyasına və zəhərli tullantıların toplandığı əraziyə çevrilmişdir. 1980-1988-ci illərdəki İraq-İran müharibəsi və daha sonra 1990-1991-ci illər arasında Birinci Körfəz Müharibəsi zamanı bütün İraqda 61.000 ton bomba istifadə edilmişdir. Bundan əlavə, 1000-dən çox neft quyusunun partladılması nəticəsində çıxan yanğınlar Küveyt və digər qonşu körfəz ölkələrinin və Hind okeanın səmasında qalın tüstü buludu yaradaraq bir çox ərazinin çirklənməsinə səbəb olmuşdur.

Neft quyularının yanması nəticəsində meydana gələn neft, kömür və kükürd turşulu yağışlar vasitəsilə 1900 km məsafələrə daşınmış, flora və faunaya zərər vurmuşdur. Müharibə zamanı neft quyularından sızan neftdən 30-50 sm dərinliyində, ümumi sahəsi 49 $km^2$ olan 240-dan çox neft hovuzu yaranmışdır. Birinci Körfəz Müharibəsi zamanı İraqın bütün infrastrukturu, o cümlədən içməli su sistemləri, kanalizasiya strukturları və bəndlər bombalanmışdır. Bunların nəticəsində Bağdadda təmiz su kanallarının 40%-i zədələnmişdir. İraq müharibəsi (İkinci Körfəz Müharibəsi) dövründə isə bütün sistem demək olar ki, məhv olmuşdur. Buna görə də müharibədən sonra içməli su çatışmazlığı yaranmış, bir çox insan su vasitəsilə yoluxan xəstəliklərdən dünyasını dəyişmişdir (Yücel\Çolakkadıoğlu,2007, s.84-85).

**Nəticə**

Göründüyü kimi hələ Küveytin işğalından əvvəl İraqa qarşı qərəzli mövqeyə sahib ABŞ uzun illər ərzində ölkə ilə bağlı xüsusi siyasət həyata keçirmişdir. İraqa müdaxilə zamanı bəyan edilən Səddam Hüseyn və BƏƏS rejiminə son qoyaraq ölkəni "azadlığa" çıxarmaq, kütləvi qırğın silahlarını aşkar edərək zərərsizləşdirmək, bölgədəki terror qruplaşmalarını tərk-silah etmək və beləliklə, İraqı Yaxın Şərq ölkələri üçün model dövlətə çevirmək iddiaları isə özünü doğrultmamışdır. Keçmiş diktator Səddam Hüseynin gizli laboratoriyalarda kütləvi qırğın silahları istehsal etdiyi iddia edilsə də, çoxsaylı axtarışlar nəticəsiz başa çatmış və İraqda ABŞ-ı narahat edən silahlar tapılmamışdır. İraqda yalnız mövcud hakimiyyəti devirməklə sabit demokratik rejimin yaradılmasının zəruri olduğu bildirilsə də, Səddam Hüseynin devrilməsindən və koalisiya qüvvələrinin nəzarəti altına keçməsindən sonra ölkə xaos və münaqişə ocağına çevrilmişdir. Beləliklə, bu müddət ərzində İraqda ABŞ-ın arzuladığı demokratik rejim yaranmamış, 2005-ci ildə həyata keçirilən ilk parlament seçkiləri də siyasi sistemin möhkəmlənməsinə yox, partiyalararası münaqişə və qarşıdurmalara gətirib çıxarmışdır.

ABŞ-ın iddia etdiyi səbəblərin sadəcə ölkəyə müdaxilə üçün bəhanə olduğu, əsas məqsədin ölkənin neft ehtiyatlarına və ən əsası Yaxın Şərqin ən mühüm neft ehtiyatı bölgəsi olan Bəsrə körfəzinə nəzarətin ələ keçirilməsi olduğu ortaya çıxmışdır. Bundan əlavə, ABŞ üçün müttəfiqi olan İsrailin maraqlarının təmin etmək baxımından da bu müharibə böyük əhəmiyyət kəsb edirdi. BMT-nin rəsmi razılığı olmadan başlanılmış müharibədə Cenevrə konvensiyalarına və müharibə zamanı məhbuslarla davranış qaydalarına məhəl qoyulmamışdır. Bu, eyni zamanda Vaşinqtonun başqalarına şamil edilən qaydalardan özünü azad hesab etdiyini bildirən bir mesaj idi. Sülh və ədalətin bərqərar olması, terrorizmin qarşısının alınması şüarları ilə aşkar heç bir sübut olmadan 2003-cü ildə İraqa müdaxilə edən ABŞ-ın 2023-cü ildən dünyanın gözləri önündə Fələstin xalqına qarşı soyqırımı törədən İsraillə əməkdaşlığı da birmənalı qarşılanmamalıdır. Səddam rejiminə son verilməsi, S.Hüseynin edam edilməsi, ölkəyə nəzarətin ələ alınması və hərbi bazaların ölkədə yerləşdirilməsi ilə ABŞ öz məqsədlərinə nail oldu. Lakin başlanğıcda sadəcə siyasi rejim dəyişikliyi kimi görünən müharibə, zamanla ABŞ üçün çox mürəkkəb bir mərhələyə keçdi və müharibədən sonra bu müdaxilənin yanlış addım olduğu qənaətinə gəlindi. ABŞ-ın məqsədinin terrorizmlə mübarizə deyil, Orta Şərqdəki mövcud strukturun dəyişdirilməsi və nəzarət altına alınması olduğu bir daha öz təsdiqini tapdı.

## ƏDƏBİYYAT SİYAHISI:


**Azərbaycan dilində**

İsmayıl R., Axundova N., Bağırova A., (2013), Ərəb ölkələrinin çağdaş tarixi I cild, Bakı: Afpoliqraf, 402 s. https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/Ereb_olkelerinin_chagdash_tarixi_I_hisse_Asiyanin_ereb_olkeleri.pdf

**Türk dilində**

Arıöz Z., Öztekin M.K., (2021), Olağanüstü hal çerçevesinde hukuk ve siyaset ilişkisi: ABD-nin teröre karşı savaşı ve istisna halinin mekansal temsilleri olarak Guantanamo ve Ebu Gureyb, Güvenlik Çalışmaları Dergisi, cilt: 23, sayı:2, s.178-199 https://dergipark.org.tr/en/download/article-file/1772466

Bigaç O., Körfez savaşı ve Irak işgaline Avrupa Birliğinin yaklaşımı, UPA Strategic Affairs, sayı:1, 2020, s.4-14 https://dergipark.org.tr/tr/pub/upa/issue/60727/898984

Boz Ü., (2024), ABD'nin 2003 Irak müdahalesinin uluslararası hukuk açısından değerlendirilmesi, Aksaray Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, cilt:16, sayı:1, s.51-64 https://dergipark.org.tr/tr/download/article-file/3607604

Demir C.K., Kavaklı S., Sert A., (2020),Irak savaşında ABD ordusu, Jandarma ve Sahil Güvenlik Akademisi Yayınları, Ankara, 120 s. https://www.jsga.edu.tr/kurumlar/jsga.edu.tr/Yayinlar/kitaplar2020/IRAK_SAVASINDA_ABD_ORDUSU_e_kitap_1_-_1_.pdf

Çelik A., (2019), Abd işgali sonrası Irak'ın siyasi durumu ve Türkmenler, İstanbul Gelişim Universitesi, İstanbul, 68 s. https://acikerisim.gelisim.edu.tr/server/api/core/bitstreams/979ea514-c346-444c-9b02-cb1d22296547/content

Okur M.A., (2008), Körfez savaşı ve Irak'ın işgali arasındaki dönemde Irak'ta faaliyet gösteren BM misyonları, Atatürk Stratejik Araştırmalar Enstitüsü, sayı:7, s.163-174 https://dergipark.org.tr/tr/download/article-file/84550

Tahiroviç E., (2012), 2003'te Iraka yapılan müdahelenin "güç kullanma" kavramına olası etkileri, İstanbul Universitesi, İstanbul, 115 s. https://nek.istanbul.edu.tr/ekos/tez/51126.pdf

Usta Y., (2009), Amerika Birleşik Devletlerinin Irak Politikası Bağlamında Türkiye İle İlişkileri (1990-2006); Edirne, Trakya Üniversitesi Sosyal Bilimler Enstitüsü, 247 s. https://core.ac.uk/download/pdf/50609742.pdf

Yaycı C., (2019), Irak'ta Yaşanan Savaşlar ve Türkiye'ye Etkileri, Güvenlik Stratejileri Dergisi, cilt:15, sayı: 30, s.331-352 https://dergipark.org.tr/tr/download/article-file/809363

Yenal S., (2020), Savaş Kavramının Dönüşümü: 1. ve 2. Körfez Savaşı Örneğinde Hibrit Savaşların İncelenmesi; Kara Harp Okulu Bilim Dergisi, cilt:30, sayı:1, 2020, s.85-110, https://dergipark.org.tr/tr/download/article-file/1173696

Yücel M., Çolakkadıoğlu D., (2007), Savaşın çevresel etkileri, Ç.Ü., Ziraat Fakültesi dergisi, Adana, cilt:22, sayı:4, s.81-90 https://www.researchgate.net/publication/333210801_Savasin_Cevresel_Etkileri

**İngilis dilində**

Carney S. A., (2011), Allied Participation in Operation Iraqi Freedom, Center of Military History United States Army, Washington, 141 p. https://tile.loc.gov/storage-services/master/gdc/gdcebookspublic/20/23/69/31/56/2023693156/2023693156.pdf

Hinnebusch R., (2007), American invasion of Iraq : causes and consequences, Perceptions, volume:12, no:1, p. 9-27 https://research-repository.st-andrews.ac.uk/bitstream/handle/10023/3251/InvaIraqPercept_Turk_Spring07.pdf?sequence=1&isAllowed=y

Hinnebusch R., (2007), The US Invasion of Iraq: Explanations and Implications, Critical Middle Eastern Studies, volume:16, no:3, p.209-228, , https://www.tandfonline.com/doi/pdf/10.1080/10669920701616443

Rayburn C.J., Sobchak C.F., (2019), The U.S. Army In The Iraq War 2003-2006, United States Army War College Press, volume: 1, 739 p. https://media.defense.gov/2023/May/05/2003216672/-1/-1/0/3667.PDF

Salhani J., (2025), How the US funded Israel's wars on Gaza, Lebanon, Iran, Al Jazeera, 7 october 2025 https://www.aljazeera.com/features/2025/10/7/reports-israel-couldnt-wage-wars-on-gaza-lebanon-iran-without-us-support

**Ərəb dilində**

خالد سعد السهلي، حرب الخليج الثالثة (2003) و انعكاساتها على دولة الكويت، جامعة الشرق الاوسط،٢٠١٢ ، ١٤٨ ص. https://www.meu.edu.jo/libraryTheses/586a0f2d0e436_1.pdf

سؤدد فؤاد الالوسي، الغزو الأميري للعراق: حقائق و أرقام، عمان، دار المعتز، الطبعة الأولى،٢٠١٢، ٢٥٢ ص. https://archive.org/details/kzo_iraq/page/n251/mode/1up

علي صباح صابر، الاحتلال الأمريكي للعراق وإشكالية بناء الدولة ( 2003-2014 )، جامعة الشرق الأوسط، ٢٠١٤، ٢١٦ ص. https://meu.edu.jo/libraryTheses/586a38bc909d7_1.pdf

صلاح عبود محمود، الغزو الأمريكي للعراق عام 2003، عمان، شركة دار الأكادميون للنشر والتوزيع، الطبعة الأولى، ٢٠١٩، ٣٢٤ ص. https://ia801600.us.archive.org/34/items/20230316_20230316_0713/%D8%A7%D9%84%D8%BA%D8%B2%D9%88%20%D8%A7%D9%84%D8%A3%D9%85%D8%B1%D9%8A%D9%83%D9%8A%20%D9%84%D9%84%D8%B9%D8%B1%D8%A7%D9%82%20%D8%B9%D8%A7%D9%85%202003%20%D8%B5%D9%84%D8%A7%D8%AD%20%D8%B9%D8%A8%D9%88%D8%AF%20%D9%85%D8%AD%D9%85%D9%88%D8%AF.pdf

عزري رحيمة، الغزو الأمريكي للعراق سنة 2003، بسكرة، جامعة محمد خيضر، ٢٠١٥، ١١٠ ص. http://archives.univ-biskra.dz/bitstream/123456789/6763/1/12.pdf